



2

# TƏSVİRİ İNCƏSƏNƏT

DƏRSLİK







# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

YEGANƏ CƏLİLOVA , KƏMALƏ CƏFƏRZADƏ

# TƏSVİRİ İNCƏSƏNƏT
# 2

Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Təsviri incəsənət fənni üzrə
DƏRSLİK

©Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **bn@bakineshr.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR

# Mündəricat


1 SEHRLİ RƏNGLƏR
1. Təbiət və rəssam . . . . . . . . . . 5
2. Rənglərin müxtəlifliyi . . . . . . . . . 7
3. İsti və soyuq rənglər . . . . . . . . . 9
4. Möcüzəli ləkələr . . . . . . . . . . 11
5. Payızın sehrli rəngləri . . . . . . . . . 12
Özünüzü yoxlayın . . . . . . . . . . 15
2 TƏSVİRETMƏ QAYDALARI
6. Naxış və ornamentlər . . . . . . . . . 16
7. Simmetriya . . . . . . . . . . . 18
8. Naturadan rəsm . . . . . . . . . . 20
9. Plastilin "nəyi bacarır" . . . . . . . . . 22
10. Rəngarəng mənzərələr . . . . . . . . 24
11. Natürmort . . . . . . . . . . . 25
Özünüzü yoxlayın . . . . . . . . . . 27
3 TƏBİƏT VƏ İNSAN
12. Neft daşlarına səyahət . . . . . . . . 28
13. Rəssam-heykəltəraş . . . . . . . . . 30
14. Təbiəti qoruyaq . . . . . . . . . . 32
15. Qış nağılı . . . . . . . . . . . 34
16. Düşündürən hərflər . . . . . . . . . 35
17. Xoş gəlmisən, elin əziz bayramı! . . . . . . 36
18. Yurdumuza Bahar gəlir . . . . . . . . 38
Özünüzü yoxlayın . . . . . . . . . . 39
4 GÖZƏLLİK ALƏMİNƏ SƏYAHƏT
19. Məişət əşyalarının gözəlliyi . . . . . . . 40
20. Sualtı dünyanın sakinləri . . . . . . . . 42
21. Təsəvvürə əsasən quşları çəkirik . . . . . . 44
22. Təbiətin gözəliyi tikmələrdə . . . . . . . 46
23. Bəzək əşyaları . . . . . . . . . . 48
24. Nağıllarda xeyirxahlıq və qəddarlıq . . . . . . 50
25. Nəqliyyat vasitələrini çəkirik . . . . . . . 51
26. Güllərin möcüzəsi . . . . . . . . . . 52
Özünüzü yoxlayın . . . . . . . . . . 54
27. Dünyanın məşhur muzeyləri . . . . . . . 55

# 1 SEHRLİ RƏNGLƏR

## 1 Təbiət və rəssam

Bizi əhatə edən ətraf aləmin rəngləri şair və yazıçıları, bəstəkar və rəssamları yaratmağa ruhlandırır. Şair və yazıçılar sözlərlə, bəstəkarlar notlarla, rəssamlar isə əsasən, boyalarla yaradır.

Ətraf aləmdəki hadisə və obyektləri təsvir etmək üçün diqqətli müşahidəçi olmaq lazımdır. **Müşahidəçi** – ətraf aləmi seyr edən insana deyilir. **Rəssam** da diqqətlə müşahidə edən, sirli və sehrli təsvirlər yaradan insandır. O yaxında və uzaqda olan ağacları, hündür və alçaq dağları, heyvan, quş və bitkilərin formasını müşahidə edir və öz rəsmində çəkir.

**Rəssamların yay fəslinə aid əsərlərini seyr edin. Əsərlərdə nə təsvir olunub? Rəssamlar hansı rənglərdən istifadə ediblər?**



"Amsar bağlarında". Səttar Bəhlulzadə



"Yay". Lətif Feyzullayev

**Xatırlayaq**

Təsviri incəsənət əsərlərini yaradan rəssam müxtəlif materiallardan istifadə edir.

**Akvarel** – incə və şəffaf xüsusiyyətə malik sulu boyadır. Bu boya ilə işlədikdə sudan çox istifadə olunur.



**Quaş** – boyanın şəffaflığı yoxdur, qatıdır. İş zamanı boyadan çox, sudan isə az istifadə olunur.



**Boyalar vasitəsilə yaradılan əsərlər necə adlanır?**

**Pastel** – yumşaq, rəngli təbaşirdir. Onun vasitəsi ilə xətt və ləkələri yaymaqla təsvirlər yaratmaq olar.



Pastel təbaşirlər



**Karandaş və flomasterlər** – təsvir alətləridir.

**Pastel təbaşirlər, rəngli karandaş və flomasterlərlə çəkilmiş təsvirlər necə adlanır?**

Rəssam rəngli kağızlarla işləyir.



Rəssam-heykəltəraş daşı yonur.



Rəssam ağacı yonur.



**Rəngli kağızlarla hazırlanan təsvirlər necə adlanır?**
**Daş və ağacdan yaradılan əsərlər necə adlanır?**

**Yaradıcı tapşırıq**

A3 format rəsm vərəqi, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş və ya akvarel, rəngli kağızlar, plastilin

Yay fəslinə aid rəsm çəkin. Harada olduğunuzu və nə etdiyinizi təsvir edin. Təbiəti müşahidə etmisinizmi? Yayda ən yadda qalan nələr oldu?

- **Rəssamlar öz əsərlərini hansı materiallardan istifadə edərək yaradırlar?**
- **Verilmiş rəssam əsərlərində təsvir olunan hansı hadisələri həyatda müşahidə etmisiniz?**

**Yeni sözlər**

• Müşahidə etmək • Müşahidəçi

# 2 Rənglərin müxtəlifliyi

Dünyanı rəngsiz təsəvvür etmək mümkün deyildir. Ətraf aləmdə o qədər müxtəlif rənglər var ki!

**Xatırlayaq**

Əsas rənglər hansılardır?



**Yadda saxlayın**
Əsas rəngləri heç bir rəngdən almaq olmur.

Əsas rəngləri bir-birilə qarışdırarkən müxtəlif rənglər almaq mümkündür. Alınan rənglər **qarışıq rənglər** adlanır.

Qırmızı və sarı rəngin qarışığından **narıncı rəng** alınır.



Sarı və göy rəngin qarışığından **yaşıl rəng** alınır.



Bir neçə rəngi qarışdıraraq müxtəlif qarışıq rənglər almaq olar. Onların alınmasını izah et.



Hər bir əşyanın forması olduğu kimi, rəngi də var. Ətraf mühit rəngsiz çox darıxdırıcı olar.

Rəngarəng göy qurşağı körpünü xatırladır. Burada rənglər ardıcıl qaydada olur: qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy, bənövşəyi.



**Təbiətdə göy qurşağının rənglərində olanları sadalayın. Gördükləriniz başqa rəngdə ola bilərmi? Niyə?**

**Yaradıcı tapşırıq** Quaş və ya akvarel

Əsas rəngləri bir-biri ilə qarışdıraraq göy qurşağı çəkin. Onun harada yerləşdiyini, ətrafını təsvir edin.

**Müşahidələriniz əsasında nümunələr göstərin:**
- **Təbiətdə daha çox hansı rənglər var – əsas və ya qarışıq?**
- **Rənglərin insana təsiri varmı?**

**Yeni sözlər**
- Qarışıq rənglər

# 3 İsti və soyuq rənglər

Rənglər isti və soyuq olur.

**İsti rənglər** sarı, qırmızı, narıncı, qəhvəyi və onlardan alınan rəng çalarlarıdır. **Çalar** – bir rəngin müxtəlifliyidir. Bu rənglər bizə Günəşi, istini, odu-alovu, səhranı xatırladır.

**Soyuq rənglər** bizə şaxta-sazağı, qarı, buzu, dənizi xatırladır. Bu rənglərə göy, bənövşəyi, yaşıl, mavi və onların çalarlarını aid etmək olar.

**İsti rənglər**





**Soyuq rənglər**





**Təbiətdə isti və soyuq rənglərdə olan hansı varlıqlar var?**

**Rəsm əsərlərinin hansında isti, hansında soyuq rənglər üstünlük təşkil edir?**



"Dağlı qadın".
Nadir Əbdürrəhmanov



"Bahar gəlir".
Elmira Şaxtaxtinskaya

**Yaradıcı tapşırıq** — A3 format rəsm vərəqi, quaş və ya akvarel, palitra

İsti və soyuq rənglərdən ibarət bir rəsm çəkin. Rəsm vərəqini ortadan şaquli xətlə ayırın. Xəttin bir tərəfində isti, digərində isə soyuq rənglərdə olanları çəkin. Əsas rəngləri qarışdıraraq qarışıq rənglər almaq olar. Rənglər və rəsm nümunəsi ilə tanış ola bilərsiniz.



Şagird rəsmləri

- **İsti, yaxud soyuq rənglər insanda hansı ovqat yaradır?**
- **İsti və soyuq rənglərə dair nümunələr göstərin.**

**Yeni sözlər**

• İsti rənglər • Soyuq rənglər • Çalar

# 4 Möcüzəli ləkələr

Rəssam isti və soyuq rənglərlə düz və maili xətlər çəkir. O həm də ləkələrlə təsvir edir. Rəngkarlıqda **ləkə** – fırçanın qoyduğu iz və əsas ifadə vasitəsidir. Ləkələr böyük və kiçik, dəyirmi və uzunsov, tünd və ya açıq rəngdə olur.

Bəzən ləkələr vasitəsi ilə yaradılmış əsəri başa düşmək, onun nəyə bənzədiyini tapmaq üçün bu əsəri çox diqqətlə seyr etmək lazım gəlir.



"Mulen Ruj" seriyasından. Arif Əziz



"Ağıllı tutuquşu". Arif Əziz

**Rəssam əsərində nə təsvir edib? Ləkələr nə rəngdədir? Onlar nəyə bənzəyir?**

**Yaradıcı tapşırıq** Quaş və ya akvarel

Vərəqin ortasında ixtiyari olaraq suluboya ilə birrəngli ləkə çəkin. Sonra onun hansı heyvana, yaxud quşa bənzədiyini müəyyən edin. Ləkəyə göz, qulaq, bığ, quyruq, ayaqlar çəkin. Əgər quşdursa, qanad və dimdik əlavə edin. Sonra bənzətdiyinizi rəsmə kimi tamamlayın. Ola bilsin ki, sizdə real deyil, fantastik rəsm alınsın.

- **Səmadakı buludları seyr etmisinizmi? Onları nəyə bənzətmisiniz?**

**Yeni sözlər**
- Ləkə

# 5 Payızın sehrli rəngləri

Bütün sənətkarlar kimi, rəssamlar da təbiətdən ilham alırlar. Onların əsərlərində payız mövzusunun xüsusi yeri var. Bu fəsil öz rəngarəngliyi ilə insanları cəlb edir.

**Rəssamlar öz əsərlərində hansı rənglərdən istifadə etmişlər?**



"Mənzərə". Bağır Maratlı



"Qızıl payız". Əli Səfərov

Rəssam payızı seyr edən zaman təbiətdə baş verənləri müşahidə edir. Müşahidələri rəssama bütöv bir əsəri yaratmağa kömək edir. Təsvir zamanı o, obyektləri elə yerləşdirir ki, onlar bir-birini tamamlasın.

Ayrı-ayrı hissələrdən bütöv bir təsvir yaratmaq – **kompozisiya** adlanır. Kompozisiya vasitəsi ilə rəssam tamaşaçıya düşündüyü hadisənin məzmununu açıqlayır.





Rəsmin hissələri



Bütöv təsvir

## Rəsmlərin hansında kompozisiya düzgün verilmişdir?


1


2


3


4

### Sənətkar məsləhəti

### Kompozisiyanın qurulması

1. Rəsmi çəkərkən səma, torpaq, çay, oturacaq və ağacların yerlərini müəyyən edin.



2. Obyektləri çəkin və formalarını dəqiqləşdirin.



3. Oturacağı, ağacların gövdə, budaq və yarpaqlarını əlavə edin.



4. Rəsmi rəngləyin.



Oturacaq və ağacın çəkilmə ardıcıllığı




**Yaradıcı tapşırıq**

Quaş, rəngli karandaşlar, pastel təbaşirlər

Kompozisiyanı nəzərə alaraq payız mənzərəsini təsvir edin.

- **Payızın rəngləri hansılardır?**
- **Payız fəslində isti rənglər çoxdur, yaxud soyuq rənglər?**

**Yeni sözlər**

- Kompozisiya

# ÖZÜNÜZÜ YOXLAYIN

**1.** Rəssamın istifadə etdiyi materialları ardıcıllığa əsasən göstərin:

quaş → pastel təbaşir → akvarel → plastilin


1


2


3


4

**2.** Əsas və qarışıq rəngləri sadalayın.


1 2 3 4 5 6 7

**3.** Əsas rənglərdən hansı qarışıq rənglər alınır? Nümunələr əsasında izah edin.

**4.** Rəssam əsərlərində müəyyən edin:

***Əsas və qarışıq rənglər** ***İsti və ya soyuq rənglər**


"Balaca Esmira".
Güllü Mustafayeva


"Narlar mis qablarla".
Məlik Məmmədxanov

**5.** Düzgün verilmiş kompozisiyanı müəyyən edin.


1


2


3


4

# 2 TƏSVİRETMƏ QAYDALARI

## 6 Naxış və ornamentlər

Təbiət özünü hər zaman bəzəyir! Yarpaqlar, çiçəklər çox gözəldir! Təbiətdə mövcud olan forma və materiallardan istifadə etməklə insanlar da ərtafı gözəlləşdirməyə çalışırlar. Müxtəlif əşyaları bəzəmək üçün rəssam həndəsi fiqurlardan, gül və yarpaqlardan naxış və ornamentlər fikirləşir.

Təkrarlanan naxışa **ornament** deyilir. Ornament qab-qacağı, geyimi, xalçaları bəzəyir.



Ornamentin elementləri çox zaman zolaqda yerləşir. Belə kompozisiya əşyaların kənarına gözəllik verir.



Naxış

Ornament

Ornamentlər müxtəlif olur. Daha çox nəbati və həndəsi ornamentlərə rast gəlinir.

**Nəbati ornamentlər** – yarpaq, budaq, gül və digər bitki elementlərindən ibarət olur.



**Həndəsi ornamentlər** – dairə, üçbucaq, düzbucaq, kvadrat və digər həndəsi fiqurlardan ibarətdir.



**Yaradıcı tapşırıq**

Rəngli karandaşlar, qələmlər, flomasterlər

Nəbati və həndəsi ornamentlər düşünün və çəkin.

- **Naxışlara harada rast gəlmək olar?**
- **Nəbati və həndəsi ornamentlər arasında fərq nədir?**

**Yeni sözlər**

• Naxış • Ornament • Nəbati ornament • Həndəsi ornament

# 7 Simmetriya

Rəssam varlıqları təsvir edərkən onların əsas xüsusiyyətlərini nəzərə alır. Rəsmdəki kəpənəyin mərkəzindən keçən xətt onu iki eyni hissəyə bölür. Əgər kəpənəyin təsvirini ortadan qatlasaq, hər iki qanadı üst-üstə düşər. Qanadlar güzgüdə olan əksə bənzəyir. Qatlanma xətti **simmetriya** oxu adlanır.





Simmetriya oxu





Bu əşyalar isə simmetrik deyil. Onların bir tərəfi digərindən formasına, ölçüsünə və başqa xüsusiyyətlərinə görə fərqlənir.





**Gördüklərinizin hansı simmetrikdir, hansı isə simmetrik deyil? Cavabınızı əsaslandırın.**













Rəngli kağız, qayçı və yapışqandan istifadə etməklə simmetrik quşu aşağıdakı kimi düzəltmək olar.



1 2 3



4 5 6

Kağızla iş zamanı müxtəlif üsullardan istifadə olunur. Onu qatlamaq, kəsmək, fırlatmaq olar. Rəngli kağız, dəri, məxmər parçalarının kağız, parça üzərinə yapışdırılması və ya tikilməsi aplikasiya adlanır.

Simmetriyanı nəzərə alaraq, kəpənəyi düzəltməyə çalışın.



1 2 3



**Yadda saxlayın**

Əşyanın mərkəz oxundan kənarda yerləşən sağ və sol hissəsi eynidirsə, deməli, o, simmetrikdir.

**Yaradıcı tapşırıq** Rəngli kağız, rəngli karandaşlar, flomasterlər

Simmetrik obyektlərin aplikasiyasını düzəldin.

- **Ətrafınızda simmetrik olan nələr var?**
- **Aplikasiya vasitəsilə simmetrik olan daha hansı varlıqları hazırlamaq olar?**

**Yeni sözlər**

- Simmetriya

# 8 Naturadan rəsm

Rəssam ətraf aləmin gözəlliyini – canlı və cansız təbiəti həmişə öz rəsmlərində təsvir etməyə çalışır. Belə təsvirlərə **naturadan rəsm** deyilir. Rəssam qarşısında olan naturanın formasını, rəngini, hissələrini müşahidə və müqayisə edə bilir.

Naturadan rəsm zamanı öz oyuncaqlarınızdan istifadə edə bilərsiniz. Oyuncaqlar rəngarəng və müxtəlifdir – şən, məzəli, mülayim, düşündürücü və s.



**Yadda saxlayın**

**Naturadan rəsm** – qarşımızda olan varlıqların təsvir edilməsidir.

Sevimli oyuncağınızı çəkmək üçün əvvəlcə onun təsvirini vərəqdə düzgün yerləşdirin.

**Rəssam oyuncağın təsvirini hansı vərəqdə düzgün yerləşdirilmişdir?**



**Yaradıcı tapşırıq** Quaş, pastel təbaşirlər

Sevimli oyuncağınızı çəkin. Vərəqdə onu düzgün yerləşdirməyə çalışın. Verilmiş nümunələrdən istifadə edə bilərsiniz.

## Sənətkar məsləhəti

### Oyuncaqların təsvir ardıcıllığı



1 2 3 4



1 2 3 4



1 2 3 4



1 2 3 4

- **Oyuncaqlar hansı hissələrdən ibarətdir?**
- **Bu oyuncaqların həyatda olan varlıqlardan fərqli və oxşar cəhətləri nədir?**

**Yeni sözlər**

- Naturadan rəsm

# 9 Plastilin “nəyi bacarır”

İnsanlar qədim zamanlardan heyvanları təsvir edir, onların hərəkətinin çeviklik və gözəlliyinə heyran qalırdılar.

Quş, heyvan, balıq və həşəratların təsvirinə **animalistika** deyilir. Heyvanları təsvir edən rəssamı isə **animalist** adlandırırlar.

Çin animalistikasından nümunələr.

**Rəngkarlıq**





Rus animalistikasından nümunələr.

**Qrafika**



**Heykəltəraşlıq**



Rəssam Vasiliy Vatagin

Təsvirin yaradılması üsullarından biri də **yapma**dır. Yapma zamanı gil və plastilindən istifadə olunur. Plastilin yumşaq olduğu üçün nümunə üzərində düzəliş etmək asan olur.

Onunla iş zamanı lazım olan hissəni əsas kütlədən hamarlamaqla, basmaqla, dartmaqla ayırmaq lazımdır.

**Yaradıcı tapşırıq** Plastilin və ya gil

Sevimli heyvan fiqurunu yapın. Verilmiş nümunələrdən istifadə etməklə heyvan fiqurunu yapa bilərsiniz.

## Sənətkar məsləhəti

Bütöv plastilin kütləsindən heyvan fiqurunu yapmağa çalışın.

1. Plastilinlə heyvan fiquru yaparkən onun xüsusiyyətlərini müşahidə və müqayisə edin.
2. Rəng seçimini müəyyənləşdirin.
3. Plastilini dartmaqla, sıxmaqla, basmaqla ümumi kütləni hissələrə ayırın.
4. Fiqurun detallarını hazırlayın və hamarlamaqla dəqiqləşdirin.




- **Heyvan fiquru hansı hissələrdən ibarətdir?**

**Yeni sözlər**
- Animalistika • Animalist

# 10 Rəngarəng mənzərələr



**Mikayıl Abdullayev**

Təbiətin gözəlliyi hər zaman rəssamları cəlb etmişdir. Əzəmətli rəngarəng dağlar, mavi çaylar, yaşıl ağaclar və al-əlvan çiçəklər Xalq rəssamı Mikayıl Abdullayevin əsərlərində xüsusi yer tutur. Təbiət təsvirlərinə **mənzərə** deyilir.



"Mənzərə". Mikayıl Abdullayev



"Dağlar". Mikayıl Abdullayev

**Əsərdə hansı xətləri görmək olar?**
**Rəssam dağları və yolları hansı rənglərlə boyayıb?**
**Hansı əsərdə isti, hansında soyuq rənglər var? Onları sadalayın.**
**Mənzərələrdə uzaqda və yaxında nələr təsvir olunub?**

Mikayıl Abdullayevin yaradıcılığı doğma Azərbaycan və onun gözəllikləri ilə bağlıdır. Onun təsvir etdiyi mənzərələr insanı rəngarəngliyi və əlvanlığı ilə heyran edir.

O, dəfələrlə müxtəlif mükafatlara layiq görülüb. Rəssamın əsərləri dünyanın bir sıra muzeylərində saxlanılır.

**Yaradıcı tapşırıq** Quaş və ya akvarel

Əsas rəngli boyaları bir-birilə qarışdıraraq müxtəlif əlvan rənglər alın. Mənzərə çəkin. Dağları, yolları, çayları, ağacları bu rənglərlə boyayaraq rəngarəng mənzərə yaratmağa çalışın.

- **Mənzərə təsvirlərinə harada rast gəlmək olar?**
- **Azərbaycanın hansı mənzərəli yerlərində olmusunuz?**

**Yeni sözlər**
- Mənzərə

# 11 Natürmort

İnsan məişətdə qablardan istifadə edir. Bu qablar arasında müxtəlif forma, rəng və naxışlarla zəngin güldanlar var. Onlar müxtəlif materiallardan hazırlanır: ağac, şüşə, gil və ya metal.


Ağac


Şüşə


Gil


Metal

**Güldanlardan necə istifadə edirlər? Onlar arasında fərq nədədir? Onların forması haqqında danışın.**

Qab-qacaqların, gül-çiçəklərin, meyvə və tərəvəzlərin təsvirinə **natürmort** deyilir. Rəssamlar natürmortları məişətdə istifadə edilən əşyalara əsasən qurur və naturadan çəkirlər.


"Zanbaq. Natürmort".
Davud Kazımov


"Çiçəklər. Nardaran".
Tahir Salahov

**Verilmiş natürmortlarda rəssamlar nələri təsvir etmişlər?**

**Yaradıcı tapşırıq** Quaş, akvarel, rəngli karandaşlar və ya pastel təbaşirlər

Müxtəlif formalardan istifadə edərək güldan çəkin. Onu vərəqdə düzgün yerləşdirin və içinə də çiçəklər əlavə edin. Rəng vasitəsilə hansı materialdan hazırlandığını göstərin.

## Sənətkar məsləhəti

Naturadan güldanın rəsmini çəkərkən diqqətlə müşahidə aparın. Ardıcıllığa əməl etməklə onu çəkin:

1. Güldanın en və hündürlüyünü müqayisə edərək, onu vərəqdə yerləşdirin.
2. Güldan simmetrik olarsa, mərkəzdən simmetriya oxunu çəkin.
3. Formaya uyğun kənar xətlərini dəqiqləşdirin.
4. Gülləri əlavə edin.
5. Güldanı və gülləri rəngləyin.

Naturadan rəsm zamanı mərhələlərin ardıcıllığına əməl etmək vacibdir. Bu biliklərdən digər məişət əşyalarının çəkilməsində də istifadə edə bilərsiniz.

1


2


3


4




- **Güldandan daha necə istifadə etmək olar?**
- **İnsanlar ağac, şüşə, gil və ya metaldan nələr hazırlayırlar?**

**Yeni sözlər**
- Natürmort

# ÖZÜNÜZÜ YOXLAYIN

**1.** Əşyalar üzərində ornamentləri müəyyən edin:

*Nəbati ornamentlər *Həndəsi ornamentlər






1 2 3 4

**2.** Qablar hansı materialdan hazırlanıb?

**3.** Simmetrik olan əşyaları sadalayın.

**4.** Rəssam əsərlərində janrları ardıcıllığa əsasən müəyyən edin:

mənzərə → natürmort → animalistika




“Nərgizlər”. Mahmud Tağıyev




“Dənizkənarı bulvar axşamçağı”.
Kamil Nəcəfzadə




“Evdovşanı”. Albrext Dürer

# 3 TƏBİƏT VƏ İNSAN

## 12 Neft daşlarına səyahət



**Maral Rəhmanzadə**

Azərbaycanın təbiəti, məişəti, doğma yurdun bütün gözəllikləri məşhur rəngkar və qrafik Maral Rəhmanzadənin yaradıcılığında tərənnüm olunub. Xalq rəssamı Maral Rəhmanzadə bir çox əsərlərini Neft daşlarına, dəniz neftçilərinin qəhrəmanlığına həsr etmişdir.

Rəssamın uşaqlığı neft qoxulu Xəzərin sahilində keçib. İllər sonra gənc rəssam neftçilərlə birlikdə dənizə çıxır, onların əməyini müşahidə edirdi. O, neftçilərin dənizdəki təbii fəlakətə qarşı nə qədər cəsarətli olduğunu görürdü.



"Günəş şüaları". Maral Rəhmanzadə

**Əsərin məzmunu nədən ibarətdir?**
**Niyə nefti "qara qızıl" adlandırırlar?**
**Rəssamın qrafika əsərlərində neft buruqlarının forması, ölçüsü, rəngi və xətləri haqqında danışın.**

Maral Rəhmanzadənin əsərləri bir çox ölkələrin muzeylərində, şəxsi kolleksiyalarda saxlanılır. Sənətkar dövlətimiz tərəfindən bir sıra mükafatlara layiq görülüb.



"Estakada". Maral Rəhmanzadə

**Yaradıcı tapşırıq**

A3 format ağ və ya qara rəsm vərəqi, qara flomaster, ağ və ya qara pastel təbaşirlər

"Neft daşları" mövzusunda qrafik rəsm çəkin. Rəsminizdə neft buruqları, mədənləri, dəniz mənzərəsini, buruq quraşdırıcılarının rəsmləri ilə maraqlı kompozisiya yaradın. Rəsmi ağ vərəqdə qara, qara vərəqdə ağ rənglə çəkin. Aşağıda verilmiş nümunələrdən istifadə edin.



- **Qrafika əsərlərinin xüsusiyyətləri nədir?**
- **Neft daşlarında olmusunuzmu? Sizdə hansı təəssürat yaranıb?**

# 13 Rəssam-heykəltəraş

Çox qədim zamanlarda insanlar gili əzməklə müxtəlif formalara salmağın mümkün olduğunu aşkar etmişlər. Yapma sənətinin təməli belə qoyulmuşdur.

**Xatırlayın** Heykəltəraş kimə deyilir? Onun əsərləri necə adlanır?



**Cəlal Qaryağdı**

Azərbaycanın tanınmış heykəltəraşlarından biri də Xalq rəssamı Cəlal Qaryağdıdır. O, əsərlərini döyüş və əmək qəhrəmanlarına həsr etmişdir.

Böyük Vətən müharibəsi qəhrəmanı Həzi Aslanovun portreti Lənkəranda ucaldılır. Sənətkar musiqi sənətinin görkəmli nümayəndələrindən olan Fikrət Əmirovun, Qara Qarayevin, Bülbülün, Rəşid Behbudovun da portretlərini məharətlə yaratmışdır.

Molla Pəhan Vaqifin, Mirzə Ələkbər Sabirin və Nəriman Nərimanovun əzəmətli heykəlləri heykəltəraşın yaddaqalan əsərlərindəndir.



Molla Pənah Vaqif



Mirzə Ələkbər Sabir



Nəriman Nərimanov

Azərbaycan heykəltəraşlıq məktəbinin formalaşmasında və inkişafında Cəlal Qaryağdının əvəzsiz xidmətləri olub. Heykəltəraşın əsərlərinə tək Bakıda deyil, ölkəmizin müxtəlif şəhər və rayonlarında da rast gəlmək olar.

**Yaradıcı tapşırıq** Plastilin

Hərəkətdə olan insan fiquru yapın. Aşağıda verilmiş nümunə və qaydalardan istifadə edə bilərsiniz. İnsan fiqurunun şəkildə göstərilən hərəkətlərini müəyyən edin.



Plastilinlə iş zamanı bir rəngdən digər rəngə keçdikdə əllərinizi və plastik bıçağı – steki əsgi parçası ilə təmizləyin.



1 2 3



### Sənətkar məsləhəti

İnsan fiqurunu aşağıdakı ardıcıllığa əməl etməklə düzəltmək olar:

1. Baş, boğaz, gövdə, ayaqlar və qollara uyğun olaraq plastilini hissələrə ayırın.
2. Onları uyğun formalara salın.
3. Detalları (əllər, qaş, göz, burun, ağız, qulaq) və elementləri dəqiqləşdirin.

- **Hansı heykəltəraşın yaradıcılığı ilə tanışsınız?**
- **Cəlal Qaryağdının hansı heykəllərinini görmüsünüz?**

# 14 Təbiəti qoruyaq

Gündəlik həyatda istifadə edilən süd, kibrit, şirə qutuları və digər materiallar istifadədən sonra tullanılır. Bu tullantıları məişət üçün gərəkli, gözoxşayan əşyalara çevirmək olar. Təbiəti çirklənməkdən qorumağın bir yolu da budur.





Əsgər fiqurları



Stol



Gülqabı

Karandaş yonqarlarını vərəq üzərinə yapışdırmaqla düzəldilən təsvirlər.





Tullantılardan maraqlı tikililər düzəldib, şəhər kompozisiyası qurmaq olar.






**Şagirdlərin əl işləri.**
"Qədim şəhər"
(tullantılardan hazırlanmış kompozisiya)

**Yaradıcı tapşırıq** Rəngli kağız, karton, kağız və ya plastik qutular, flomasterlər, PVA yapışqanı

Tullantılardan istədiyiniz konstruksiyaları düzəldin.







- **Tullantılardan daha nələr hazırlaya bilərsiniz?**
- **Təbiəti daha necə qorumaq olar?**

# 15 Qış nağılı

Təbiət hər fəsildə gözəldir. Qışda hər tərəf sanki ağ örpəyə bürünür. Bəyaz qış şaxtası ətrafa yağan qar ilə cəlbedicidir. Rəssamlar da qışın gözəlliyinə heyran qalırlar. Onlar qarlı, şaxtalı qış fəslini öz əsərlərində məharətlə təsvir edirlər.



"Bağda qar".
Asəf Cəfərov



"Neft daşlarında qış".
Tağı Tağıyev

**Bu əsərlərdə hansı rənglər üstünlük təşkil edir – isti və ya soyuq?**

**Şam ağacının çəkilmə ardıcıllığı**

Şam ağacını çəkin və quaşdan istifadə edərək əvvəlcə rəngləyin, quruduqdan sonra isə üzərinə ağ ləkələr – qar çəkin. Bu ağacdan çəkəcəyiniz rəsmdə də istifadə edə bilərsiniz.






Qış mənzərəsi. Şagird işi

**Yaradıcı tapşırıq** Quaş, rəngli karandaşlar, pastel təbaşirlər

Qışda müşahidə etdiklərinizi çəkin.

- **Qışda təbiətdə hansı dəyişikliklər baş verir?**

# 16 Düşündürən hərflər

Hər birinizin nağıl kitabı var. Bu kitablarda baş verən hadisələri rəssam çəkir. Kitabdakı rəsm **illüstrasiya**, rəssam isə **illüstrator** adlanır.

Mətnin birinci hərfi həmişə diqqəti cəlb edir. Sənətkar xüsusi olaraq onu naxışlarla bəzəyir və rəngləyir. Ona **baş hərf** deyilir. Baş hərfə diqqətlə baxsaq, mətn haqqında bir çox məlumatlar "danışa" bilər.






**Yaradıcı tapşırıq**

Rəngli flomasterlər, karandaşlar

Vərəqdə iri və qalın bir hərf çəkin. Bu sizin sevimli hərfiniz, adınızın, yaxud soyadınızın ilk hərfi ola bilər. Onu istədiyiniz heyvan və ya quşa, həşərata və ya bitkilərə çevirin və ya sadəcə rəngarəng nəbati naxışlarla bəzəyin.

- **Hansı illüstrasiyalı kitabları oxumusunuz?**
- **Bu kitablardakı mətnlərin baş hərfləri necə bəzədilib?**

**Yeni sözlər**

• İllüstrasiya • İllüstrator • Baş hərf

# 17 Xoş gəlmisən, elin əziz bayramı!

Azərbaycan xalqının əziz bayramlarından biri də Novruz bayramıdır. Novruz bayramı qədim insanların əmək, əkinçilik, bolluq, bərəkət rəmzi və məişəti ilə bağlı yaranmışdır.

Səməni göyərtmək Novruzun ən müqəddəs əlamətidir. Xalqımız səməni göyərtməklə növbəti ilə bolluq, bərəkət arzulayır.



**Yaradıcı tapşırıq** Quaş, flomasterlər, pastel təbaşirlər

Novruz süfrəsinə aid natürmort çəkin. Xonçanı bəzəkli yumurta, qoz-fındıq və şirniyyatlarla bəzəyin.

## Sənətkar məsləhəti

Novruz xonçasının nemətlərini çəkmək üçün aşağıdakı ardıcıllığa əməl edin.




- **Novruz bayramı hansı fəsillə əlaqədardır?**
- **Novruz xonçasına nələr daxildir?**

# 18 Yurdumuza Bahar gəlir

Bahar gələndə təbiət oyanır. Bu fəslin təsvirinə rəssamların əsərlərində tez-tez rast gəlmək olur. Hər fəslin öz gözəlliyi var. Qarlı-şaxtalı qışın da, qızılı yarpaqlarla torpağı bəzəyən payızın da, al-əlvan çiçəkli yayın da.
Ağacların tumurcuqlaması, quşların səsi baharın gəlişindən xəbər verir.

**Verilmiş əsərlərə baxın və nələrin təsvir olunduğunu müəyyən edin.**



"Çiçəklənən bağ".
Səttar Bəhlulzadə



"Bahar. Çiçəkləyən alma ağacları".
İsaak Levitan

**Yaradıcı tapşırıq** Quaş, flomasterlər, pastel təbaşirlər

Yaz mənzərəsi təsvir edin. Yazı kənddə, öz küçənizdə, parkda, meşədə, yaxud dağlarda göstərə bilərsiniz. Çiçəklənən ağacı nümunəyə əsasən çəkin.

**Sənətkar məsləhəti**

**Çiçəkləyən ağac**

Bahar fəslində ağaclar çiçəkləyir.
Təsvir ardıcıllığını nəzərə alaraq, nümunəyə əsasən çiçəkləyən ağac çəkin.




- **Yaz fəslinin daha hansı xüsusiyyətlərini tanıyırsınız?**
- **Bahara, yaza aid hansı atalar sözü və tapmacaları xatırlayırsınız?**

## ÖZÜNÜZÜ YOXLAYIN

**1.** Rəssamların əsərlərində Novruz bayramının əsas xüsusiyyətləri haqqında danışın.



"Novruz". Böyükağa Mirzəzadə



"Novruza hazırlıq". Elmira Şaxtaxtinskaya



"Novruz bayramı". Xalidə Səfərova



"Novruz bayramı". Anar Hüseynzadə.

**2.** Rəssamlar daha çox hansı (isti və ya soyuq) rənglərdən istifadə etmişlər?

**3.** Verilmiş şəkillər arasında yaz fəslinə aid olanı müəyyən edin:









# 4 GÖZƏLLİK ALƏMİNƏ SƏYAHƏT

## 19 Məişət əşyalarının gözəlliyi

İnsan təbiətdə olan müxtəlif materiallardan istifadə edir. Bunlardan biri də təbii **gil**dir. Onunla yapma işlər yerinə yetirmək olar.

İnsanlar ta qədim zamanlardan gildən istifadə etməyə başlamışlar. Qədim insan gildən müxtəlif qab-qacaqlar hazırlayıb. Onlara **saxsı** qablar deyirlər. Bu materialdan hazırlanmış və məişətdə istifadə edilən əşyalar zərərsiz, rahat və gözəl olur. Onları **dulusçuluq** sənətinə aid edirlər. Dulusçuluq – Azərbaycanın ən qədim xalq sənəti növlərindən biridir.





Bacarıqlı əllər dulus çarxında fırlanan gil parçasını **küp**ə çevirərək yapır. Küpün – məişətdə istifadə etdiyimiz qabın üzəri naxışlanır. Sonra xüsusi şirə çəkilərək onun möhkəm olması üçün sobada bişirilir.








**Gördüyünüz qablardan necə istifadə edirlər?**



Qablar uzun və qısa, enli və ensizdir, müxtəlif dərinlik və formaya malikdir. Onların qapaq, qulp, oturacaq hissələri də olur.

**Yaradıcı tapşırıq** Plastilin və ya gil

Məişətdə istifadə edilən saxsı qab-qacaq düzəldin. Onların üzərinə naxışlar əlavə edin. Aşağıdakı ardıcıllığa əməl etməklə qabları hazırlaya bilərsiniz.

### Sənətkar məsləhəti

**Plastilinlə iş**

Qabları aşağıdakı ardıcıllığa əməl etməklə plastilindən düzəltmək olar:

1. Hissələri müəyyənləşdirin.
2. Onları uyğun formaya salın.
3. Əşyanı dəqiqləşdirin və naxışlarını əlavə edin.




- **Evinizdə hansı gil qablar var? Onlardan necə istifadə edirsiniz?**
- **Qab-qacaqdan başqa gildən daha nələr hazırlamaq olar?**

**Yeni sözlər**

• Gil • Saxsı • Dulusçuluq • Küp

# 20 Sualtı dünyanın sakinləri

Dəniz və okeanların dərinliklərində böyük, kiçik, bəzəkli və əlvan rəngli müxtəlif canlılar yaşayır. Onların arasında balıqlar xüsusi yer tutur.

Balıqlar bədən, qəlsəmələr, üzgəclər və quyruqdan ibarətdir. Bu canlılar – dairəvi, oval, uzunsov və digər formalarda olur.



"Su gözəlləri".
Əli Səfərov

**Yaradıcı tapşırıq** Rəngli karandaşlar, pastel təbaşirlər, flomasterlər

Qeyri-adi formaya və rəngə malik olan balıq çəkin və yaşadığı mühiti də əlavə etməyi unutmayın.

## Sənətkar məsləhəti

Hər balığın öz forması və naxışı var.
Təsvir ardıcıllığını nəzərə alaraq balıqlardan birini çəkin.
Nümunələrə baxın və yeni balıq forması yaradın.





B

1
2
3
4



C

1
2
3
4



Ç

1
2
3
4



- **Balıqların üzərindəki naxış və rəngləri harada tətbiq etmək olar?**



# 21 Təsəvvürə əsasən quşları çəkirik

Təbiətdə quşların müxtəlif növlərinə rast gəlmək olar. Quşlara əlvan qanadları, kəkilləri xüsusi yaraşıq verir.

Rəssam qarşısında olanı naturadan çəkir. Çox zaman gördüyünü diqqətlə müşahidə, müqayisə edir və onun əsas xüsusiyyətini yaddaşında saxlayır. Sonra təsəvvürünə əsasən təsvir edir.

Quşları təsəvvürə əsasən göstərilən mərhələlərlə çəkmək olar.









**Yadda saxlayın.** Əvvəlki müşahidələr əsasında çəkilənlərə **təsəvvür əsasında rəsm** deyilir.















**Yaradıcı tapşırıq** Rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər

Təsəvvürə əsasən quş rəsmi çəkin. Bu zaman quşların yaşayış tərzini və onları əhatə edən mühiti nəzərə alın.

- **Heyvan və quşları təsvir edən rəssam necə adlanır?**
- **Şəkildə gördüyünüz quşlar harada yaşayırlar?**



# 22 Təbiətin gözəlliyi tikmələrdə

İnsanlar qədimdən geyiminə, eləcə də həyat və məişətdə istifadə etdiyi əşyalara gözəllik verməyə çalışmışlar. Geyim, pərdə, örtük, süfrə, balış, mütəkkə və s. üzərində rəngli saplarla işlənilmiş bəzəklər görmək olar.

Bu bəzəklər xalq sənətinin növü olan **tikmə** üsulu ilə verilmişdir. Tikmə – müxtəlif növ sap, parça, muncuq, pilək və s. bədii materiallardan istifadə edilməklə tikiş tikmək üsuludur.





**Tikmələrdə hansı forma, rəng və naxışlar var?**

Rəssam Mirzə Qədim İrəvani tikmələr üçün çoxlu naxış-rəsmlər çəkmişdir. O, qızılgül, zanbaq və digər çiçəklərdən mürəkkəb kompozisiyalar tərtib etmişdir. Belə milli naxışları nəbati və heyvanat aləmindən götürülmüş rəsmlər – bülbül, qaranquş, tovuz quşu, qızılgül və nar gülü təşkil edir.



"Mah Tələt xanım".
Mirzə Qədim İrəvani



"Gənc oğlan".
Mirzə Qədim İrəvani

**Verilmiş rəssam əsərlərindəki geyimlər üzərində hansı naxışları görmək olar?**

**Yaradıcı tapşırıq** — Rəngli flomasterlər və qələmlər

Nəbati və heyvanat aləminə aid tikmə naxışlar düşünün və çəkin. Naxışlarda qızılgül, qərənfil, lalə, zanbaq, nar, heyva çiçəkləri, müxtəlif formalı yarpaqlar, bülbül, tovuz quşu və digər formalar çəkə bilərsiniz. Aşağıdakı nümunələr sizə yardım edəcək.









- **Evinizdə, məişətdə istifadə etdiyiniz əşyalarda tikmələr varmı?**
- **Tikmə üsulu ilə daha nələri bəzəmək olar?**

**Yeni sözlər**
- Tikmə

# 23 Bəzək əşyaları

Bizi əhatə edən bəzəkli əşyalar **dekorativ-tətbiqi sənətə** aiddir. Zinət əşyalarını hazırlayan rəssama **zərgər** deyilir. Zərgərlik məmulatlarını bəzəyərkən o müxtəlif materiallardan istifadə edir: mirvari, rəngli şüşə və qiymətli daşlar.





Xalq sənətkarları qeyri-adi bəzək əşyaları düşünüb hazırlamışlar.



**Qədim bəzək əşyalarının forması nəyi xatırladır?**

**Yaradıcı tapşırıq** — Plastilin, nazik məftil

Plastilindən muncuq düzün. Verilmiş nümunələrdən istifadə edə bilərsiniz.

**Sənətkar məsləhəti**

Muncuq düzümünü plastilindən də düzəltmək olar.

1. Əvvəlcə plastilindən uzun hörmələr düzəldin.



2. Onları bərabər hissələrə bölün.



3. Hissələrdən yumru, oval və digər formalarda muncuqlar düzəldin. Muncuqlar böyük və kiçik ölçüdə ola bilər.



4. Muncuqları nazik məftilə düzərək yığın.



Muncuqların rəngi müxtəlif ola bilər: isti və ya soyuq, əsas və ya qarışıq rənglərdə.



- **Dekorativ-tətbiqi sənət nədir?**
- **Necə fikirləşirsən, rəssamlar bəzək əşyalarını nə üçün düşünüblər?**

# 24 Nağıllarda xeyirxahlıq və qəddarlıq



"Cırtdan".
Azərbaycan nağılı

Nağıllar – möcüzələrlə dolu sirli, sehrli aləmdir. Burada, adətən, xeyirxahlıq qəddarlıq üzərində qələbə çalır və hadisələr xoşbəxt sonluqla bitir.

Nağıllardakı obrazlar mətnə çəkilmiş təsvirlərdə – **illüstrasiyalarda** daha aydın şəkildə göstərilir.

İllüstrasiya çəkmək üçün əvvəlcə nağılı diqqətlə oxumaq və yaxud yada salmaq lazımdır. Sonra orada baş verən hadisələri təsəvvür etmək olar.





"Cırtdan" nağılına çəkilmiş illüstrasiyalar Azərbaycanın Xalq rəssamı Rasim Babayevə məxsusdur.

**Yaradıcı tapşırıq** Rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər

Qəhrəmanların xarakterini – xeyirxah və ya qəddar obrazları sevimli nağılınızda göstərməyə çalışın.

**• Oxuduğunuz nağıllarda təsvir olunan obrazlar haqqında nə deyə bilərsiniz?**

# 25 Nəqliyyat vasitələrini çəkirik

İnsanlar kəndə, rayona, şəhərə və ya başqa ölkələrə getmək üçün nəqliyyat vasitələrindən istifadə edirlər. Nəqliyyat vasitələrinə avtobus, qatar, təyyarə, gəmi və digərləri aiddir.

**Yaradıcı tapşırıq** Rəngli karandaşlar, flomasterlər

İstədiyiniz nəqliyyat vasitəsinin rəsmini çəkin.

### Sənətkar məsləhəti

Nəqliyyat vasitələrini ardıcıllığa əsasən çəkə bilərsiniz:

1. Nəqliyyat vasitələrinin hündürlüyünü və enini qeyd edin.
2. Elementləri əlavə etməklə nəqliyyat vasitəsinin rəsmini tamamlayın.
3. Rəsmi rəngləyin.







- **Rəsmlərdə hansı nəqliyyat vasitələri təsvir olunmuşdur?**
- **Nəqliyyat vasitələrində mövcud olmayan hansı xüsusiyyətləri görmək istərdiniz?**

# 26 Güllərin möcüzəsi

Güllər gözəllik rəmzidir. Rəssamlar güllərin gözəlliyini öz əsərlərində böyük məhəbbətlə təsvir edirlər. Yurdumuzun rəssamları zövqoxşayan mənzərələr yaratmışlar.

Mahmud Tağıyev təbiətimizi bəzəyən lalələrin, Xalidə Səfərova isə süsənlərin forma və rəngini məharətlə təsvir etmişdir.



"Lalələr". Mahmud Tağıyev



"Süsənlər". Xalidə Səfərova

**Yaradıcı tapşırıq** Rəngli kağız, karton

Güllərin aplikasiyasını düzəldin.

## Sənətkar məsləhəti

**Güllərin aplikasiyası**

1. Rəngli kağızlardan dairə kəsin, ortadan qatlayın.



2. Qatlanmış yarımdairələri dörd bərabər hissəyə bölün.



3. Kiçik dairəyə kimi xətlər boyunca kəsin.



4. Kəsilmiş hissələri buraraq sıxın. Əlavə iki nümunə hazırlayın.



5. Hazır ləçəkləri iç-içə yapışdırın.



6. Sonra yarpaqları ardıcıllıqla kəsin və rəngli vərəqə yapışdırın.



Hazır iş



## Qərənfilin aplikasiyası











- **Hansı gülləri tanıyırsınız?**
- **Gül-çiçəklər insanda hansı əhvalı yaradır?**

## ÖZÜNÜZÜ YOXLAYIN

**1.** Rəssamların nağıllara çəkdiyi rəsmlər necə adlanır?







**2.** Nağıllardakı xeyirxah obrazlar haqqında nə deyə bilərsiniz?

**3.** Gördüyünüz əşyaların hansı tullantılardan hazırlandığını müəyyən edin.


1


2


3


4


5

**4.** Bu əşyaları necə hazırlamaq olar?

# 27 Dünyanın məşhur muzeyləri

Luvr, Topqapı, Ermitaj — dünyanın məşhur muzeylərindəndir. Həmin muzeylərdə Azərbaycan sənətkarlığının qədim və gözəl nümunələri saxlanılır.

**Luvr muzeyi**. Luvr Fransada, Parisin mərkəzində yerləşir. Bu muzey əvvəl qala, sonra kral sarayı olub. Orada dünyanın məşhur təsviri sənət əsərləri saxlanılır. Muzeydə Azərbaycan sənətkarlarının yaratdığı nadir dekorativ-tətbiqi sənət nümunələri də nümayiş etdirilir. Bunlar xalçalar, gümüş, mis və bürüncdən düzəldilmiş bədii metal sənəti nümunələrimizdir.



Luvr muzeyi. Paris



Bürünc dolça

**Topqapı sarayı muzeyi.** Bu muzey ən qədim saraylardan biridir. O, Türkiyənin İstanbul şəhərində yerləşir.

Burada nümayiş etdirilən əşyaların bir çoxu dünyada bənzəri olmayan əsərlərdir. Azərbaycanın dekorativ-tətbiqi və təsviri sənət nümunələri bu muzeydə saxlanılır. Sənətkarlıq nümunələrimiz arasında say etibarilə ən görkəmli yeri müxtəlif metaldan düzəldilmiş ev əşyaları, zərgərlik nümunələri və silahlar tutur. Burada Azərbaycan toxuculuq sənətinin bir çox nadir nümunələri də saxlanmaqdadır. Bunlardan parçaları, bədii tikmələri və xalçaları xüsusi qeyd etmək lazımdır.



Topqapı sarayı muzeyi. İstanbul



Kəmər fraqmenti



Polad dəbilqə

**Ermitaj.** Ermitaj muzeyi Rusiyanın Sankt-Peterburq şəhərinin mərkəzində, Neva çayının sahilində yerləşir.

Ermitajın zəngin və təmtəraqlı salonlarında keçmişdə müxtəlif yığıncaqlar, bal gecələri keçirilərdi. Sonralar Ermitaj muzey kimi məşhurlaşdı.

Ermitajın Şərq mədəniyyəti və incəsənəti şöbəsində Azərbaycan ustalarının yaratdıqları qədim sənət nümunələri də var.



Ermitaj. Sankt-Peterburq

Burada ən qədim dövrlərdən Azərbaycan ustaları tərəfindən düzəldilmiş zərgərlik, saxsı, daş, taxta üzərində oyulmuş sənət əsərləri və müxtəlifnövlü toxuculuq nümunələri vardır.

Sankt-Peterburq Dövlət Ermitajında metaldan hazırlanmış sənət nümunələri ilə yanaşı, bir çox orijinal formalı, bəzəkli məişət əşyalarımız da nümayiş etdirilir.

Ermitajın Şərq mədəniyyəti və incəsənəti şöbəsində saxlanılan sənət nümunələri



Bürünc qab



Tunc şamdan

**Yaradıcı tapşırıq**

Tanış olduğunuz muzeylər haqqında əlavə məlumat toplayın və təqdim edin.

- **Muzeylər nə üçün yaradılır?**
- **Dünyanın hansı məşhur muzeylərinin adını sadalaya bilərsiniz?**
- **Muzeylərdə nələr nümayiş etdirilir?**

*BURAXILIŞ MƏLUMATI*

---

**TƏSVİRİ İNCƏSƏNƏT**
*Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün*
*Təsviri incəsənət fənni üzrə dərslik*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Yeganə Cəlilova**<br>**Kəmalə Cəfərzadə** |
| Redaktorlar | **Kəmalə Cəfərli** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssamlar | **Məzahir Hüseynov, Elmir Məmmədov** |
| Korrektor | **Aqşin Məsimov** |

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2021-017**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri
və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 5,8. Fiziki çap vərəqi 7. Səhifə sayı 56.
Kağız formatı $57 \times 82^1/_8$. Kəsimdən sonra 195 × 275.
Ofset kağızı. Arial qarnituru. Ofset çapı.
Sifariş ___. Tiraj 167182. Pulsuz. Bakı – 2021.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 17.07.2021**

Çap məhsulunu nəşr edən:
**“Bakı” nəşriyyatı** (Bakı ş., H.Seyidbəyli küç., 30)

Çap məhsulunu istehsal edən:
**“Təhsil NP” MMC** (Bakı ş., F.Xoyski küç., 121a)

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!





